**“Təsdiq edilmişdir”**

**Əmanətlərin Sığortalanması Fondunun**

**Himayəçilik Şurasının 13 mart 2009-cu il tarixli (12 saylı protokol ) qərarı ilə**

# Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi

# Q AYDALARI

**( 24 iyun 2013 - cü il tarixli dəyişikliklərlə )**

**Bakı – 2009**

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – "Qanun") əsasən Fond tərəfindən qorunan əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalar hər hansı bir iştirakçı bankda sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərin ərizələrinin qəbul edilməsi və kompensasiyaların ödənilməsi üçün agent bankın (bundan sonra – "Agent bank") Fond tərəfindən müsabiqə yolu ilə seçilməsini müəyyən edir. Sığorta hadisəsi bankın məcburi ləğvi və ya müflis elan olunması, bankın əmanətçi qarşısında əmanət üzrə öhdəliklərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı (bundan sonra – "Mərkəzi Bank") tərəfindən təsdiq edilməsidir.

1.3. Bu Qaydalarla tənzimlənməyən münasibətlər müsabiqə prosesində Fondun Himayəçilik Şurası tərəfindən tənzimlənir.

# 2. MÜSABİQƏNİN TƏŞKİLATÇISI VƏ İŞTİRAKÇILARI

<u>Əmanətlərin Sığortalanması Fondu</u>

2.1. Fond qorunan əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın müsabiqə yolu ilə seçilməsinin təşkilatçısıdır.

2.2. Müsabiqə prosesi iki mərhələdən ibarətdir:

2.2.1. Keçiriləcək müsabiqədə iştirak etmək üçün bankların ilkin (açıq) seçilməsi- Fondda akkreditasiyası üçün. İlkin seçki daim aparılır;

2.2.2. Fondda akkreditasiya olan bankların siyahısından Müsabiqədə (bundan sonra – "Müsabiqə") iştirak edəcək bankların seçilməsi.

2.3. Müsabiqənin keçirilməsi üçün Fondun Himayəçilik Şurası daimi müsabiqə komissiyasını (bundan sonra – "Müsabiqə komissiyası") yaradır. Fondun İcraçı Direktoru müsabiqə komissiyasının reqlamentini təsdiq edir. Müsabiqə komissiyasının tərkibinə Fondun əməkdaşları və digər kənar müstəqil ekspertlər daxil edilə bilər. İştirakçı banklar sənədləri təqdim edərkən Müsabiqə komissiyası

təqdim edilmiş sənədlərin məzmunu ilə əlaqədar banklardan izahat tələb etmək hüququna malikdir.

2.4. Fond üzv banklar tərəfindən müsabiqədə iştirak etdikləri zaman yaranan xərcləri kompensasiya etmir.

2.5. Müsabiqə prosesində Fond:

2.5.1. Müsabiqə iştirakçılarının koordinasiyasını yerinə yetirir. Rəqabəti və qanuni maraqları məhdudlaşdıran və ya onlara xələl gətirən hərəkətlərə yol verə bilməz;

2.5.2. Hər hansı banka müsabiqədə iştirak etmək üçün müstəsna şərait yarada bilməz, o cümlədən müsabiqə prosesinin təşkili və keçirilməsinə aid məxfi məlumatla təmin edə bilməz.

2.6. Hər hansı bank (və ya onun müvəkkil şəxsləri) tərəfindən müsabiqənin keçirilməsi qaydaları və ya qanunun tələbləri pozulduğu halda, Fond həmin bankın müsabiqədə iştirakına icazə verməmək və ya iştirakına xitam vermək hüququna malikdir.

2.7. Fondun Himayəçilik Şurası:

2.7.1. Müsabiqə komissiyasının tərkibini təsdiq edir (lazım olduqda tərkibini dəyişə bilər);

2.7.2. İlkin seçkiləri və müsabiqənin keçirilməsini təmin edir;

2.7.3. Bankın müsabiqəyə buraxılmaması haqda müsabiqə komissiyasına göstəriş verir;

2.7.4. Bankın müsabiqədə iştirakına xitam verir;

2.7.5. Müsabiqə komissiyasının təklifi əsasında bankın Fondda akkreditasiyasını qəbul edir;

2.7.6. Müsabiqə komissiyasının təklifi əsasında bankın Fondda akkreditasiyasına xitam verir;

2.7.7. Müsabiqə komissiyasının təklifi əsasında müsabiqədə qalib gələn bankın (və ya bankların) Fondda statusunu təsdiq edir;

2.7.8. Müsabiqə komissiyasının təklifi əsasında agent bankın dəyişdirilməsi haqqında qərar qəbul edir;

2.7.9. İlkin seçkilər və müsabiqənin baş tutmaması haqqında qərar qəbul edir.

İştirakçı banklar

2.8. Müsabiqədə Əmanətlərin Sığortalanması Fondunun üzvü olan və Fonda sığorta haqları ödəyən banklar və xarici bankların yerli filialları iştirak edə bilərlər.

2.9. İştirakçı bank ilkin seçkilər və ya müsabiqədə öz iştirakına xitam vermək hüququna malikdir.

2.10. Sığorta hadisəsi baş verdikdə, Sığorta hadisəsi baş verən bankın və filiallarının yerləşdiyi regionlarda, həmin bankın qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsini müvafiq filialları vasitəsi ilə təmin etməlidir.

2.11. Baş ofis və filial şəbəkəsi arasında real vaxt rejimində fəaliyyət göstərən əməliyyat sistemi mövcud olmalıdır.

2.12. Fondda akkreditasiya almaq üçün ərizə ilə müraciət edən iştirakçı bank axırıncı hesabat tarixinə aşağıdakı tələblərə cavab verməlidir:

2.12.1. Mərkəzi Bank tərəfindən fiziki şəxslərdən əmanətlərin qəbul edilməsinə icazəsi olmalı (lisenziya ən azı 1 il);

2.12.2. Mərkəzi Bankın banklara tətbiq etdiyi likvidlik və kapital adekvatlığı normativlərini son 12 ayda pozmamalı;

2.12.3. İcbari ödənişlərlə əlaqədar büdcəyə müddəti keçmiş borcları olmamalıdır.

2.13. Fondda akkreditasiya almış iştirakçı bank (bundan sonra – "Akkreditasiya almış bank") ilkin seçkilər mərhələsinin nəticələri haqqında məlumat aldığı gündən 15 (on beş) gün müddətində Fondla qarşılıqlı münasibətlər haqqında müqavilə bağlamalıdır. Müqavilənin məzmunu və forması Fond tərəfindən müəyyən edilir.

2.14. Sığorta hadisəsi baş verdikdə, agent bankla əmanətçilərinə kompensasiya verilən bank əlaqəli şəxs ola bilməz.

2.15. Əgər iştirakçı bank Fondun Himayəçilik Şurası və (və ya) Müsabiqə komissiyasının hər hansı üzvü ilə əlaqəli şəxs hesab edilərsə, həmin şəxslər müsabiqə zamanı keçirilən səsvermədə iştirak edə bilməzlər.

## 3. İLKİN SEÇKİLƏR

3.1. İlkin seçkilər HŞ –nın qərarı əsasında aparılır.

3.2. Fond tərəfindən ilkin seçkilərə dair bütün iştirakçı banklara yazılı bildiriş göndərilir.

3.3. İlkin seçkilərin başlanılması haqqında bildirişdə aşağıdakılar qeyd edilir:

- Fond ilkin seçkilərin təşkilatçısı kimi, onun poçt rekvizitləri;
- Fondun Himayəçilik Şurasının ilkin seçkilər keçirilməsinə dair qərarının tarixi;
- İlkin seçkilərin məqsədi və keçiriləcək yeri (ünvanı);
- İlkin seçkilərdə iştirak etmək üçün ərizələrin qəbulunun başlanılması tarixi;

3.3. Fond iştirakçı banklara müsabiqə sənədləri ilə tanış olmaq üçün tam şərait yaradaraq sənədləri Fondun rəsmi internet səhifəsində yerləşdirir. Əgər hər hansı iştirakçı bank müraciət edərsə, Fond müraciəti aldığı gündən 3 (üç) iş günü müddətində sənədləri həmin banka göndərir.

3.4. İlkin seçkilərdə iştirak etmək üçün iştirakçı bankın səlahiyyətli şəxsi tərəfindən imzalanmış ərizə (**bu Qaydalara 1 saylı Əlavə**) Müsabiqə komissiyasına təqdim edilir.

3.5. İlkin seçkilərdə iştirak etmək üçün təqdim edilmiş ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

3.5.1. Bank əməliyyatlarının aparılmasına dair lisenziya (surəti);

3.5.2. İcbari ödənişlərlə əlaqədar borcun olmaması haqqında məlumat (son hesabat tarixinə dair);

3.5.3. Son 12 ay üzrə likvidlik və kapital adekvatlığı normativləri haqqında məlumat~~(iştirakçı bankdan bu məlumatın qəbul edilməsi haqqında Mərkəzi Bankın qeydi ilə);~~

3.5.4. Bankın anketi (**bu Qaydalara 2 saylı Əlavə**);

3.5.5. İlkin seçkilərdə iştirak etmək üçün ərizəni imzalayan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;

3.6. İştirakçı banklar tərəfindən ərizələrin Fond tərəfindən qəbulu ilkin seçkilərin keçirilməsinə dair bildirişin iştirakçı banklara göndərildiyi gündən başlayır və iyirmi iş günü davam edir .

3.7. İştirakçı bank tələb olunan sənədləri müvafiq qaydada doldurur və Fonda göndərir. Ərizə zərfə qoyulur və möhürlənir. Zərfin üstündə Müsabiqə komissiyasının rəhbərinə ilkin seçkilər üçün bankın adı qeyd olunaraq Fonda təqdim edilir.

3.8. İlkin seçkilərdə iştirak etmək üçün bank tərəfindən göndərilmiş zərf (ərizə və əlavə sənədlərlə birlikdə) alındığı gün dərhal Fondda qeydiyyatdan keçirilərək Müsabiqə komissiyasının səlahiyyətli şəxsinə təqdim edilir.

3.9. Müsabiqə komissiyasının səlahiyyətli şəxsi zərfi aldığı gündən 1 (bir) iş günü müddətində həmin zərfi açır, zərfin içindəki bütün sənədləri Müsabiqə komissiyasının reqlamenti ilə nəzərdə tutulan qaydada qeydə alır.

3.10. Əgər bankın ərizəsinin qeydə alınması zamanı məlum olarsa ki, bank bütün sənədləri təqdim etməyib və ya təqdim edilən sənədlər lazımı qaydada tərtib edilməyib, Müsabiqə komissiyasının səlahiyyətli şəxsi banka yazılı bildiriş göndərərək mövcud olan nöqsanların aradan qaldırılmasını təklif edir.

3.11. Bank ərizə və əlavə olunan sənədləri lazımı qaydada tərtib edibsə, Müsabiqə komissiyası bankın ilkin seçkilərdə iştirakçı statusunu təsdiq edən qərar qəbul edir. Bu barədə məlumat Müsabiqə komissiyasının iclas protokoluna daxil edilir.

3.12. İlkin seçkilərin iştirakçısı statusunun əldə edilməsi haqqında müvafiq qərarın qəbul edildiyi gündən 3 (üç) iş günü müddətinə Banka rəsmi bildiriş göndərilir.

3.13. Müsabiqə komissiyası Bankın ərizəsi və digər əlavə sənədlərdə olan məlumatla tanış olaraq həmin məlumatları qiymətləndirir. *Bu zaman təqdim edilən məlumatların düzgünlüyünün yoxlanılması üçün Fond tərəfindən Mərkəzi Banka sorğu göndərilə bilər*. Müsabiqə komissiyası bankın Fondda akkreditasiya olunmasına dair tələblərinə uyğun gəlib gəlməməsi haqqında qərarı 20 iş günü müddətində verir.

3.14. Bankın akkreditasiya və ya imtina olunmasına son qərarı Fondun Himayəçilik Şurası verir.

3.15. İlkin seçkilər haqqında məlumat seçkilərdə iştirak edən hər hansı bir bankın statusuna dair müvafiq qərarın qəbul edilməsindən 3 (üç) iş günü müddətinə sifarişli məktubla (bildiriş olması şərti ilə) və ya bildirişin bank tərəfindən alınması faktını və tarixini təsdiq edən digər üsul ilə banka göndərilir.

3.16. Fondda akkreditasiya olunan bank akkreditasiya olunan bankların reyestrinə (bundan sonra – "Reyestr") daxil edilir.

3.17. Fond qarşılıqlı əlaqələr haqqında müqavilədə nəzərdə tutulan qaydada hazırlanan hesabat əsasında hər rübün axırında bankın maliyyə vəziyyətinin monitorinqini keçirir. Akkreditasiya olunan bankın tələblərə uyğun olub olmamasını yoxlayır.

3.18. Bank Fondda akkreditasiya olunan bankların reyestrindən aşağıdakı hallarda çıxarılır:

3.18.1. Bankın qarşılıqlı əlaqələr haqqında müqavilənin bağlanmasından imtina etməsi və ya həmin müqavilənin bank tərəfindən vaxtında imzalanmaması;

3.18.2. Qarşılıqlı əlaqələr haqqında müqavilənin müddətinin bitməsi və ya ona xitam verilməsi;

3.18.3. Bankın ərizəsi əsasında;

3.18.4. Bankın Fondda akkreditasiya olunması tələblərinə uyğun olmaması;

3.18.5. *Bankın Fondun iştirakçıları sırasından çıxarılması*.

3.19. Bankın Fondda akkreditasiya olunan bankların tərkibi və reyestrindən çıxarılması Fondun Himayəçilik Şurası tərəfindən müvafiq qərarın qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində banka göndərilir.

3.20. Fondda akkreditasiya olunan bankların reyestrindən çıxarılan iştirakçı bank müvafiq qərarın qəbul edildiyi gündən 2 (iki) il müddətində təkrar ilkin seçkilərdə iştirak etmək hüququndan məhrum edilir.

## 4. MÜSABİQƏNİN KEÇİRİLMƏSİ

4.1. Müsabiqə Fondun Himayəçilik Şurasının müvafiq qərarı əsasında aşağıdakı hallarda keçirilir:

*4.1.1.* ~~Sığorta hadisəsi baş verdikdə – agent bank (və ya banklar) vasitəsi ilə qorunan əmanətçilərə kompensasiyaların ödənilməsinin Fond tərəfindən elan edilməsi~~
*İştirakçı bankda sığorta hadisəsinin baş verməsi və ya baş verməsi ehtimalı barədə Mərkəzi Bankdan bildiriş daxili olduğu halda - qorunan əmanətçilərə kompensasiyaların agent bank (və ya agent banklar) vasitəsi ilə ödənilməsi məqsədə uyğun hesab edildikdə;*

4.1.2. Qorunan əmanətçilərə kompensasiyaların ödənilməsi zamanı – əlavə agent bankın (və ya bankların) kompensasiyaların ödənilməsinə Fond tərəfindən cəlb edilməsi və ya agent bankın (və ya bankların) dəyişdirilməsi;

4.1.3. İlkin ~~seçkilərin~~ *müsabiqənin* baş tutmaması halında – təkrar müsabiqənin keçirilməsinin Fond tərəfindən elan edilməsi.

4.2. Müsabiqənin keçirilməsi haqqında müvafiq qərarın qəbul edilməsi tarixindən 1 (bir) gün ərzində Fond akkreditasiya olunan bankları məlumatlandırır. Banklara

göndərilən bildirişə müsabiqədə iştirak etmək üçün ərizə forması (bundan sonra – "Müsabiqədə iştirak etmək üçün ərizə") əlavə edilir (**bu Qaydalara 3 saylı Əlavə**).

4.3. Müsabiqənin keçirilməsi haqqında bildirişdə aşağıdakılar qeyd edilir:

4.3.1. Müsabiqənin keçirilməsi haqqında Fondun Himayəçilik Şurasının müvafiq qərarının tarixi;

4.3.2. Müsabiqənin keçirildiyi yer (ünvanı) və tarixi;

4.3.3. Müsabiqədə iştirak etmək üçün ərizənin təqdim edilmə qaydası və müddəti;

4.3.4. Müsabiqədə iştirak etmək üçün ərizənin baxılma qaydası və müddəti;

4.3.5. Sığorta hadisəsi baş verən bankın adı və ünvanı;

4.3.6. Sığorta hadisəsi baş verən bankın struktur bölmələrinin yerləşdiyi yer;

4.3.7. Kompensasiya olunmalı qorunan əmanətlərin ümumi həcminə dair təxmini (hesablanmış) məlumat;

4.3.8. Qorunan əmanətçilərin ümumi sayına dair təxmini (hesablanmış) məlumat;

4.3.9. Müsabiqədə qalib gələcək iştirakçı bankla agent müqaviləsinin bağlanılması qaydası.

4.4. Bildirişin bank tərəfindən alınması faktı və tarixi sənədləşdirilmiş qaydada təsdiq edilməlidir.

4.5. Müsabiqədə iştirak etmək üçün bank ərizəni və digər sənədləri (sifarişli məktubla) müvafiq qaydada dolduraraq Fonda göndərir. Ərizə və əlavə sənədlər bank tərəfindən müsabiqənin keçirilməsi haqqında bildirişin qəbul edildiyi gündən 2 (iki) iş günü müddətində Fonda çatdırılmalıdır. Ərizə və digər sənədlər zərfə qoyulur və zərf möhürlənərək üstündə "Müsabiqə komissiyası"na yazılır. Eyni zamanda zərfin üstündə bankın adı qeyd olunmalıdır.

4.6. Müsabiqədə iştirak etmək üçün bank tərəfindən göndərilmiş zərf (ərizə və əlavə sənədlərlə birlikdə) alındığı gün dərhal Fondda qeydiyyatdan keçirilərək Müsabiqə komissiyasının səlahiyyətli şəxsinə təqdim edilir.

4.7. Bank tərəfindən göndərilmiş ərizə (zərf), ərizələrin qəbul edilməsi üçün müəyyən edilən müddət bitdikdən sonra Fonda daxil olarsa, həmin zərf 3 (üç) iş günü müddətində banka geri qaytarılır.

4.8. Müsabiqə komissiyası zərfi açaraq iclasın protokoluna aşağıdakı məlumatı daxil edir:

4.8.1. Ərizəni təqdim edən bankın adı və ünvanı;

4.8.2. Ərizənin Müsabiqə komissiyasına daxil olduğu tarix (gün, ay, il) və vaxt (saat);

4.8.3. Ərizənin və əlavə sənədlərin zərfdə olub olmaması faktı.

4.9. Bank tərəfindən təqdim edilmiş ərizə və digər sənədlər lazımı qaydada tərtib edilibsə, müsabiqə iştirakçısı statusuna uyğunluğuna dair məlumat Müsabiqə komissiyasının iclasının protokoluna daxil edilir.

4.10. Müsabiqə komissiyası zərfin açıldığı gündən 1 (bir) iş günü müddətində müsabiqə iştirakçısı statusunu əldə edən iştirakçı bankın ərizəsinə baxır.

4.11. Müsabiqə komissiyası müəyyən edilmiş prosedura (**bu Qaydalara 4 saylı Əlavə**) əsasında müsabiqə iştirakçılarının təkliflərini kollegial surətdə qiymətləndirir. Müsabiqə komissiyası qiymətləndirmənin nəticələrini nəzərə alaraq müsabiqə iştirakçılarının reytinqini müəyyən edir, iştirakçı bankların təkliflərinin dəyərinin azalması əsasında onları ardıcıllıqla yerləşdirir. Müsabiqə komissiyası reytinqi təsdiq edir. Son qərarı reytinq təsdiq edildikdən sonra 1 (bir) iş günü müddətində Fondun Himayəçilik Şurası verir.

4.12. Fondun Himayəçilik Şurasının qərarı əsasında aşağıdakı hallarda müsabiqə baş tutmamış hesab edilir:

4.12.1. Bu Qaydaların müddəaları pozulduqda;

4.12.2. Müsabiqədə iştirak etmək üçün ərizələr vaxtında Fonda daxil olmadıqda və ya ərizələrin sayı ikidən az olduqda;

4.12.3. Namizədlərin müvafiq tələblərə cavab verməməsi səbəbindən müsabiqənin qalibi müəyyən edilmədikdə.

4.13. Bankın müsabiqə iştirakçısı statusunu əldə etməsi haqqında bildiriş müvafiq qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü müddətində sifarişli məktubla (bildiriş olması şərti ilə) və ya bildirişin bank tərəfindən alınmasının faktı və tarixini təsdiq edən digər üsul ilə banka göndərilir.

4.14. Müsabiqədə qalib gələn bank (və ya banklar) müsabiqənin nəticələri haqqında məlumat aldığı gündən 1 (bir) iş günü müddətində Fondla "Əmanətlərin Sığortalanması haqqında" Qanuna müvafiq olaraq dərhal agent müqaviləsi

bağlamalıdır. Müqavilənin məzmunu və forması Fondun Himayəçilik Şurası tərəfindən təsdiq edilir. Agent müqaviləsi sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərə kompensasiyaların ödənilməsinin təşkil edilməsi məsələlərini tənzimləyir.

4.15. Bankın (və ya bankların) müsabiqədə qalib gəlməsi haqqında müvafiq məlumat agent müqaviləsinin tərəflərlə bağlandığı gündən 1 (bir) iş günü müddətində Fondun rəsmi internet səhifəsində yerləşdirilir.

4.16. Əgər müsabiqədə qalib gələn bank (və ya banklar) agent müqaviləsini bağlamaqdan imtina edirsə və ya agent müqaviləsini əvvəlcədən müəyyən edilmiş vaxt ərzində imzalamırsa, Fond qalibi (və ya qalibləri) müsabiqənin digər iştirakçıların siyahısından müəyyən edir.

4.17. Agent bank tərəfindən agent müqaviləsinin müddəalarının pozulması baş verdikdə Fondun Himayəçilik Şurası agent müqaviləsinin ləğv edilməsi və həmin bankın dəyişdirilməsi haqqında qərar qəbul edir. Müvafiq bildiriş qərarın qəbul edildiyi gündən 2 (iki) iş günü müddətinə agent banka göndərilir.

4.18. İştirakçı bank müsabiqədə qalib gələn bankların siyahısından çıxarıldığı halda həmçinin Fondda akkreditasiya olunan bankların tərkibi və reyestrindən çıxarılır. Bu halda iştirakçı bank müvafiq qərarın qəbul edildiyi gündən 2 (iki) il müddətində təkrar ilkin seçkilər və (və ya) müsabiqədə iştirak etmək hüququndan məhrum edilir.

4.19. Əgər Fond təkrar müsabiqənin keçirilməsi və ya agent bankın dəyişdirilməsini zəruri hesab edirsə, təkrar müsabiqə bu Qaydaların IV fəslinə müvafiq keçirilir.

**“Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi” Qaydalarına**

**1 saylı Əlavə**

**İlkin seçkilərdə iştirak etmək üçün**

**Ərizə forması**

______________________________________________________________

(ərizə verən iştirakçı bankın adı)

_______________________________________________________________şəxsində

(səlahiyyətli şəxsin adı, atasının adı, soyadı)

_____________________________________________əsasında fəaliyyət göstərən (bundan sonra - Bank) Fondda akkreditasiya almaq məqsədi ilə əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın (və ya bankların) ilkin seçkilərində iştirak etməsini bildirir.

Bununla əlaqədar bildiririk ki, Bank:

1) «___»________200_-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun reyestrinə daxil edilib (__saylı Şəhadətnamə);

2) «___»________ ____-ci il tarixindən fiziki şəxslərdən qorunan əmanətləri (pul vəsaitlərini) qəbul edir (lisenziyanın surəti əlavə edilir);

3) Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən tətbiq edilən (hesabat ayı tarixlərinə) likvidlik və kapital adekvatlığı normativlərini yerinə yetirir (məcburi normativlər haqqında məlumat əlavə edilir);

4) Büdcəyə icbari ödənişlərə dair müddəti keçmiş borcu (və ya borcları) yoxdur (yazılı məlumat əlavə edilir);

**Fondda akkreditasiya aldığı halda Bank “Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi” Qaydalarında qeyd edilən müddətdə Fondla qarşılıqlı əlaqələr haqqında müqavilənin bağlanılmasına razılıq verir.**

**Qoşma:**

1) Bankın anketi - ______s.;

2) Bank əməliyyatlarının aparılmasına dair lisenziya (surətləri) - ______s.;

3) İcbari ödənişlərlə əlaqədar borcun olmaması haqqında yazılı məlumat (son hesabat tarixinə dair) - ______s.;

4) Son 12 ayda likvidlik və kapital adekvatlığı normativləri və onlara əməl edilməsi haqqında məlumat ~~(Bankdan bu məlumatın qəbul edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının qeydi ilə)~~ - ______s.;

5) Ərizəni imzalayan şəxsin səlahiyyətlərini təsdiq edən sənədlər (Bankın nizamnaməsinin surəti, İdarə Heyətinin təyin edilməsi haqqında qərarın surəti, səlahiyyətli şəxs Bankın rəhbəri tərəfindən təyin edildiyi halda müvafiq etibarnamə) - ______s.;

6) Digər sənəd və məlumatlar.

(Ərizəni imzalayan səlahiyyətli şəxsin

adı, atasının adı, soyadı, vəzifəsi, imzası,

imzalanma tarixi, M.Y.)

**“Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi” Qaydalarına**

**2 saylı Əlavə**

**İlkin seçkilərdə iştirak etmək üçün**

**Bankın anketi**

Bankın tam adı (təşkilati-hüquqi formasının qeydi ilə);

Bankın rekvizitləri;

Qeydiyyatda olan vergi orqanının adı, ünvanı və telefonu;

Hüquqi ünvan;

Poçt ünvanı;

Telefon, Faks, e-mail;

Elektron poçt ünvanı;

Bank rəhbərinin adı, atasının adı, soyadı, vəzifəsi və telefonu;

Bankla əlaqə saxlanılacaq şəxsin adı, atasının adı, soyadı, vəzifəsi və telefonu;

Filialların siyahısı (hər filialın lisenziya nömrəsi, ünvanı, rəhbərinin adı, atasının adı, soyadı, vəzifəsi və telefonunun qeydi ilə, əmanətçilərin sayı, əmanət hesabı, işçi, bank şəraiti, İT infrostruktur)

(Ərizəni imzalayan səlahiyyətli şəxsin

adı, atasının adı, soyadı, vəzifəsi, imzası,

imzalanma tarixi, M.Y.)

**“Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi” Qaydalarına**

**3 saylı Əlavə**

**<u>Müsabiqədə iştirak etmək üçün</u>**

**<u>Ərizə forması</u>**

________________________________________________________________

(ərizə verən iştirakçı bankın adı)

_________________________________________________________________şəxsində

(səlahiyyətli şəxsin adı, atasının adı, soyadı)

____________________________________________əsasında fəaliyyət göstərən (bundan sonra - Bank) əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi məqsədi ilə keçirilən müsabiqədə iştirak etməsini bildirir.

Bununla əlaqədar aşağıdakı təkliflər Müsabiqə komissiyasının gündəliyinə çıxardılır:

1) Sığorta hadisədi baş verən iştirakçı bankın qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsinin təşkil edilməsinə dair:

Əmanətçilərin sənədlərinin qəbul edilməsi və onlara kompensasiyaların ödənilməsi üçün region və yaşayış məntəqələri üzrə iştirak ediləcək Bankın əsas struktur bölmələrinin siyahısı;

İcbari normativlər haqqında məlumat ~~(Bankdan bu məlumatın qəbul edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının qeydi ilə);~~

Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktına əsasən hesablanmış xüsusi vəsaitlərin (kapital) son hesabat tarixinə dair ümumi həcmi ~~(Bankdan bu məlumatın qəbul edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının qeydi ilə),~~ Bankın fiziki şəxslərdən cəlb edilən qorunan əmanətlərinin məbləği və əmanətçilərin sayı;

Bank tərəfindən fiziki şəxslərə ödənişlərin həyata keçirilməsini təsdiq edən təcrübənin olması haqqında məlumat.

2) Sığorta hadisədi baş verən iştirakçı bankın qorunan əmanətçilərinə ödənişlərin təşkil edilməsi xərclərinin kompensasiyasına dair:

Sığorta hadisədi baş verən iştirakçı bankın qorunan əmanətçilərinə kompensasiya olunan məbləğin ödənilməsi üçün Fonddan alınmalı məbləğin ödənilməsinin forması və müddətlərinin müəyyən edilməsi təklifi.

**Müsabiqədə qalib gəldiyi halda Bank "Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi" Qaydalarında qeyd edilən müddətdə Fondla agent müqaviləsinin bağlanılmasına razılıq verir.**

**<u>Qoşma:</u>**

1) Əmanətçilərin sənədlərinin qəbul edilməsi və onlara kompensasiyaların ödənilməsində iştirak ediləcək Bankın əsas struktur bölmələrinin siyahısı - ______s.;

2) İcbari normativlər haqqında son hesabat tarixinə məlumat ~~(Bankdan bu məlumatın qəbul edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının qeydi ilə)~~ - ______s.;

3) Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktlarına əsasən hesablanmış xüsusi vəsaitinin ( kapitalı ) son hesabat tarixinə ümumi həcmi, Bankın fiziki şəxslərdən cəlb edilən qorunan əmanətlərin məbləği və əmanətçilərin sayı) ~~(Bankdan bu məlumatın qəbul edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının qeydi ilə)~~ - ______s.;

4) Bank tərəfindən fiziki şəxslərə geniş şəkildə xidmət göstərilməsi təcrübəsinin olmasını təsdiq edən sənədlər - ______s.;

5) Sığorta hadisəsi baş verən iştirakçı bankın qorunan əmanətçilərinə kompensasiya olunan məbləğin ödənilməsi üçün, Fonddan alınmalı məbləğin ödənilməsinin forması və müddətlərinin müəyyən edilməsi təklifi.

6) Ərizəni imzalayan şəxsin səlahiyyətlərini təsdiq edən sənədlər (Bankın nizamnaməsinin surəti, səlahiyyətli şəxsin təyin edilməsini təsdiqləyən müvafiq etibarnamə) - ______s.;

7) Digər sənəd və məlumatlar.

(Ərizəni imzalayan səlahiyyətli şəxsin

adı, atasının adı, soyadı, vəzifəsi, imzası,

imzalanma tarixi, M.Y.)

**“Əmanətçilərə kompensasiyaların ödənilməsi üçün agent bankın seçilməsi” Qaydalarına**

**4 saylı Əlavə**

**<u>Müsabiqə iştirakçılarının təkliflərinin qiymətləndirilməsi</u>**
**<u>Proseduru</u>**

1. Müsabiqədə iştirak edən banklarda sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərin sənədlərinin qəbul edilməsi və onlara kompensasiyaların ödənilməsinə dair təklifləri (bundan sonra – Təkliflər) Müsabiqə komissiyasının üzvləri ilə kollegial surətdə bal sistemi ilə qiymətləndirilir.

2. Qiymətləndirmə müsabiqənin iştirakçıları tərəfindən təqdim edilən sənəd və məlumatların (1 saylı Cədvəl: “Qiymətləndirmə cədvəllərinin doldurulması üçün ilkin məlumat”) təhlili əsasında aparılır (2 saylı Cədvəl: “Kompensasiyaların ödənilməsinin təşkil edilməsinə dair təkliflərin qiymətləndirilməsi”).

3. ~~2–3~~ Cədvəl 2~~lər~~də 4 əsas göstərici və hər göstərici üzrə əhəmiyyət (həssaslıq) balları (Hb) 1-5 dək ballarla göstərilmişdir. Cədvəlin sonunda təklif üzrə yekun qiymət verilir.~~4-cü cədvəldə 2 və 3-cü cədvəllərin yekunu nəzərə alınmaqla hər bir iştirakçıya yekun qiymət verilir.~~

4. Cədvəl 2də ~~və 3-də~~ Ümumi çəkidə hər bir qrup göstərici üçün xüsusi çəki (sütun 7) müəyyən edilib və eyni zamanda ayrı ayrı xüsusi göstəricilər qrup halında cəmləşib.
1-2 ~~2–4~~ cədvəllər müsabiqənin hər bir iştirakçısı üzrə ayrıca doldurulur.

5. Müsabiqənin iştirakçıları eyni qiymətlər ala bilər.
6.Ballar eyni olduqda kapitalı çox olan seçilir.

7. “Kompensasiyaların ödənilməsinin təşkil edilməsi üçün təkliflərin qiymətləndirilməsi” aşağıdakı qaydada həyata keçirilir:

7.1. Cədvəl 2-də Bankın maliyyə etibarlılığını tapmaq üçün ilk olaraq cədvəl 1-də göstərilən normativlər göstəricinin səviyyəsindən asılı (1.1, 1.2, 1.3) olaraq balla qiymətləndirilir və müəyyən edilmiş bala görə qiymətləndirilmə aşağıdakı qaydada hesablanır:

Ka1 Ballarda qiymətləndirmə (sütun 8) = I dərəcəli kapitalın adekvatlıq (Ka) əmsalı üzrə əhəmiyyət (həssaslıq) balı* (xüsusi çəki30%)

Mka2 Ballarda qiymətləndirmə (sütun 8) = məcmu kapitalın adekvatlıq əmsalı üzrə əhəmiyyət (həssaslıq) balı*(xüsusi çəki 30%)

Al3 Ballarda qiymətləndirmə (sütun 8) = ani likvidlik əmsalı üzrə əhəmiyyət (*həssaslıq*) balı*(xüsusi çəki 40%)

1.4-də cəmi **Y1(sütun 8) tapmaq üçün=1.1 (8sütun)+ 1.2 (8sütun)+ 1.3 (8sütun)**

***1-də Bankın maliyyə etibarlılığını (ME) tapmaq üçün(%)= Y1(8sütun)*çəki 30%***

7.2. 2-ci Cədvəldə 2-ci mövqenin "Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində iştirak edəcək filialların kifayətliliyi" (FK) göstəricisinin doldurulması üçün sığorta hadisəsi baş verən bankın filiallarının yerləşdiyi regionlarda müsabiqədə iştirak edən ~~iştirakçı~~ bankın~~ sığorta hadisəsi baş verən bankın filiallarının yerləşdiyi regionlarda filiallarının~~ mövcudluğu əsas götürülür. Bunu müəyyən etmək üçün 2.1-ci bənddə müsabiqə iştirakçısının sığorta hadisəsi baş vermiş bankın struktur bölmələrinin yerləşdiyi regionlar üzrə **əhatə əmsalı balla (ƏMb)** aşağıdakı düsturla qiymətləndirilir:~~Müxtəlif regionlarda filialların mövcudluğu 2.1-ci bənddəki göstəriciyə uyğun müəyyən olunur.~~

~~2.1-ci bənddə **əhatə əmsalının balla** (ƏMb) qiymətini tapmaq üçün aşağıdakı düsturdan istifadə edilir:~~

***ƏMb=(Rm/Rk)*100,*** ~~ƏMb~~ ***= ~~(Rb/R)*100,~~ burda***

**Rm** – müsabiqədə iştirak edən bankın ödənişlərə ~~kompensasiyaların ödənişi həyata keçiriləcək~~ cəlb ediləcək struktur bölmələrinin yerləşdiyi regionların sayı (sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış regionlarda)~~regionlar üzrə filiallarının sayı~~

**Rk** – Kompensasiya ödənişi həyata keçiriləcək regionların sayı

Əhatə dairəsi üzrə əmsal müəyyən edildikdən sonra, həmin əmsala uyğun gələn əhəmiyyət (həssaslıq) balı ilə 2.1 bənd üzrə xüsusi çəki göstəricisinə hasilindən həmin bənd üzrə ~~göstəricinin~~ qiymətləndirmə balı **(Qb)** müəyyən olunur.

**Qb =** ***həssaslıq balı (Hb) * göstəricinin xüsusi çəkisi ((~~100~~55%)(sütun7))***

**Qb** – 2.1 bənd üzrə **qiymətləndirmə balı** (sütun8)

**Qeyd:** Bu bənddə Bakı şəhərinin inzibati ərazi vahidləri ayrı-ayrılıqda region kimi götürülür.

2.2 bənddə müsabiqədə iştirak edən bankın ödənişə cəlb ediləcək struktur bölmələrinin sığorta hadisəsi baş vermiş bankın **struktur bölmələrinə nisbəti balla (BNb)** aşağıdakı düsturla müəyyən edilir:

***BNb=(Bm/Bk)*100%, burada***

**Bm –** müsabiqədə iştirak edən bankın struktur bölmələrinin sayı (sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış məntəqələrində)

**Bk** – sığorta hadisəsi baş vermiş bankın struktur bölmələrinin sayı

2.2 bənd üzrə **qiymətləndirmə balı (Qb**) aşağıdakı düsturla müəyyən edilir:

***Qb=əhəmiyyət (həssaslıq) balı (Hb)*göstəricinin xüsusi çəkisi ((45%)(sütun 7))***

2.3-də cəmi **Y2(sütun 8) tapmaq üçün=2.1 (8sütun)+ 2.2 (8sütun)**

*2-də* ~~ci Cədvəldə~~ ~~2-ci~~ ***filialların kifayətliliyi (FK)*** mövqenin qiymətləndirilməsi üçün

***FK =Y2(8sütun)*çəki (45%),***

7.3. 2-ci cədvəlin 3-cü mövqeyi üzrə "Bankın müqayisəsi"**(BM)** qiymətləndirilməsinin aparılması üçün:

3.1-ci (**ÖMN1) Öhdəliklərin məbləğ nisbəti** bəndin göstəricisi üzrə əhəmiyyət (həssaslıq) balını tapmaq üçün Sığorta hadisəsi baş vermiş **(bankrot) bankın əmanətçilərinin qarşısında öhdəliklərinin (BBƏQÖ)** ümumi məbləğini, Müsabiqədə **iştirakçı bankın əmanətçiləri qarşısında öhdəliklərinin (İBƏQÖ)** ümumi məbləğinə bölməklə **ÖMN1=(BBƏQÖ)/ (İBƏQÖ)*100% müvafiq bal tapılır.**

**KM2** – 3.2-ci bəndin göstəricisi üzrə əhəmiyyət (həssaslıq) balını tapmaq üçün Müsabiqədə iştirak edən bankın xüsusi vəsaitinin (kapitalının**) (XV)** həcmini, Sığorta hadisəsi baş verən bankın əmanətçilərinin qarşısında öhdəliklərinə (**Ö**) bölməklə **KM2= (XV/** Ö) * 100% müvafiq bal tapılır.

Hər bir əmsal üçün: Ballarla qiymətləndirmə (sütun8) = (**ÖMN1** və ya **KM2**) həssaslıq balı* çəki%

3.3-də cəmi **Y3 tapmaq üçün=3.1 (8sütun)+ 3.2 (8sütun) və ya BM (Y3) = *(*ÖM1 * *göstəricinin xüsusi çəkisi) + (*KM2 * *göstəricinin xüsusi çəkisi)***

Bankın müqayisəsi üzrə (**BM~~3~~) ballarda qiymətləndirməni (sütun 8) tapmaq üçün**

**BM~~3~~=Y3*xüsusi çəki ( 20%)**

7. 4. 2-ci cədvəlin 4-cü mövqeyi üzrə "Bank tərəfindən fiziki şəxslərə miqyaslı ödənişlərin həyata keçirilməsinə dair təcrübəsinin olması" göstəricisinə görə qiymətləndirmənin aparılması:

***MÖ = göstəricinin əhəmiyyət balı * xüsusi çəki(5%)***

**Qeyd:** Burada 1-3-dək əhəmiyyət (həssaslıq) balları əvvəllər miqyaslı ödəniş layihələrində iştirak etməyən, lakin tələb olunan bank təcrübəsinə malik müsabiqə iştirakçıları üçün nəzərdə tutulub

7.5. 2-ci Cədvəl üzrə yekun qiymətləndirilmə balının müəyyən edilməsi üçün bütün mövqelər üzrə qiymətləndirmə balları toplanır:

***T = ME + FK + BM +MÖ***

T – Kompensasiyaların ödənilməsinin təşkil edilməsinə dair təklifin Qiyməti

~~**Cədvəl 3-ün doldurulması**~~

~~Əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin banka verilməsinə dair təkliflərin qiymətləndirilməsi zamanı kompensasiya məbləğinin tranşlar üzrə köçürülməsinə dair əhəmiyyət balları müəyyən edilir. Əhəmiyyət balının göstərici üzrə xüsusi çəkisi ilə hasilindən 3-cü Cədvəl üzrə təkilifin qiymətləndirmə balı müəyyən olunur.~~

~~***T2 = göstəricinin əhəmiyyət balı * xüsusi çəki***~~

~~T1 Əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin banka verilməsinə dair təklifin Qiymətləndirilməsi~~

~~9. Təkliflərin yekun qiymətləndirilməsi üçün 4-cü Cədvəl doldurulur.~~

~~Yekun qiymət aşağıdakı düstur üzrə hesablanır:~~

~~$R_i$ ***= (T1 * xüsusi çəki) + (T2 * xüsusi çəki)***~~

8. Müsabiqə komissiyasının katibi qiymətləndirmənin ümumi nəticəsini 3 saylı ümumi cədvələ (“Müsabiqə iştirakçılarının reytinqi”) daxil edərək müsabiqənin hər iştirakçısının yekun qiyməti ($R_i$) təkliflərin dəyərinin azalması əsasında ardıcıllıqla yerləşdirir. Müsabiqə iştirakçısının Fondun əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin bankın bu məqsədlə açılan xüsusi hesablarına köçürülməsi üzrə müəyyən etdiyi şərtlərdən daha sərfəli təklifi olduqda həmin cədvəlin müvafiq xanasında göstərilir.

11. Əgər müsabiqənin bir neçə iştirakçılarının qiymətləri eynidirsə, reytinq müəyyən edilərək sığorta hadisədi baş verən hər hansı iştirakçı bankın qorunan əmanətçilərinə ödənişlərin təşkil edilməsi qiymətinə dair daha sərfəli təklif verən banka üstünlük verilir. Əgər həmin qiymətlər də eynidirsə, daha çox xüsusi vəsaitə (kapitala) sahib olan müsabiqənin iştirakçısına üstünlük verilir.

**Müsabiqənin iştirakçılarının**
**təkliflərinin qiymətləndirilməsi**
**Proseduruna Əlavə**

| |
|---|
| Müsabiqədə iştirak edən bankın adı |

**Cədvəl 1**

**Qiymətləndirmə cədvəllərinin doldurulması üçün ilkin məlumat**

| | | |
|---|---|---|
| ~~1.~~ | ~~I dərəcəli kapitalın adekvatlıq əmsalı (Ka1)~~ | |
| ~~2.~~ | ~~Məcmu kapitalın adekvatlıq əmsalı (Mk2)~~ | |
| ~~3.~~ | ~~Ani likvidlik əmsalı (Al3)~~ | |
| ~~4.~~ | ~~Sığorta hadisəsi baş vermiş bankın əmanətçiləri qarşısında öhdəliklərin ümumi məbləği (AZN)~~ | |
| ~~5.~~ | ~~Müsabiqədə iştirak edən bankın əmanətçiləri qarşısında öhdəliklərin ümumi məbləği (AZN)~~ | |
| ~~6.~~ | ~~Müsabiqədə iştirak edən bankın xüsusi vəsaitinin (kapitalının) həcmi (AZN)~~ | |

| | | |
|---|---|---|
| ~~7.~~ | ~~Sığorta hadisəsi baş vermiş bankın regionlarda yerləşən əsas struktur bölmələrinin sayı~~ | |
| ~~8.~~ | ~~Müsabiqədə iştirak edən bankın regionlarda ödənişlərə cəlb edilən əsas struktur bölmələrinin sayı~~ | |
| ~~9.~~ | ~~Müsabiqədə iştirak edən bankın hər yaşayış məntəqəsində ödənişlərə cəlb edilən əsas struktur bölmələrinin sayı~~ | |
| ~~10.~~ | ~~Sığorta hadisəsi baş verdiyi iştirakçı bankın müvafiq yaşayış məntəqələrində yerləşdiyi struktur bölmələrinin sayı~~ | |
| ~~11.~~ | ~~Bank tərəfindən fiziki şəxslərə ödənişlərin həyata keçirilməsinə dair təcrübənin olması~~ | |
| ~~12.~~ | ~~Agent bankın ödənişlərinin həcmi~~ | |
| ~~13.~~ | ~~Fond tərəfindən agent banka ödənişlər cədvəli~~ | |

| | | |
|---|---|---|
| 1 | *I dərəcəli kapitalın adekvatlıq əmsalı (Ka 1)* | |
| 2 | *Məcmu kapitalın adekvatlıq əmsalı (Mk 2)* | |
| 3 | *Ani likvidlik əmsalı (Al 3)* | |
| 4 | *Sığorta hadisəsi baş vermiş bankın əmanətçiləri qarşısında öhdəliklərin ümumi məbləği (AZN)* | |
| 5 | *Müsabiqədə iştirak edən bankın əmanətçiləri qarşısında öhdəliklərin ümumi məbləği (AZN)* | |
| 6 | *Müsabiqədə iştirak edən bankın xüsusi vəsaitinin (kapitalının) həcmi (AZN)* | |
| 7 | *Sığorta hadisəsi baş vermiş bankın struktur bölmələrinin yerləşdiyi regionların sayı* | |
| 8 | *Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində iştirak ediləcək struktur bölmələrinin yerləşdiyi regionların sayı (sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış regionlarda)* | |
| 9 | *Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində iştirak ediləcək struktur bölmələrinin sayı(sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış məntəqələrində)* | |
| 10 | *Sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin sayı* | |

| | | |
|---|---|---|
| 11 | *Bank tərəfindən fiziki şəxslərə ödənişlərin həyata keçirilməsinə dair təcrübənin olması* | |
| 12 | *Əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin Banka verilməsi üzrə teklif* | |
| 13 | *Xidmət haqqının həcmi* | |

**Cədvəl 2**
**Kompensasiyaların ödənilməsinin təşkil edilməsinə dair təkliflərin qiymətləndirilməsi**

| ~~**№**~~ | ~~**Qiymətləndirmə mövqeləri (göstəricilər)**~~ | ~~**Həssaslıq**~~ | | | | | ~~**Çəki %**~~ | ~~**Ballarda qiymətləndirmə**~~ |
|---|---|---|---|---|---|---|---|---|
| | | ~~**1 Bal**~~ | ~~**2 Bal**~~ | ~~**3 Bal**~~ | ~~**4 Bal**~~ | ~~**5 Bal**~~ | | |
| | ~~**1**~~ | ~~**2**~~ | ~~**3**~~ | ~~**4**~~ | ~~**5**~~ | ~~**6**~~ | ~~**7**~~ | ~~**8**~~ |
| ~~1.~~ | ~~Bankın maliyyə etibarlılığı (%)~~ | | | | | | ~~30~~ | ~~=Y1(8)*30%~~ |
| ~~1.1.~~ | ~~I dərəcəli kapitalın adekvatlıq əmsalı (Ka1)~~ | ~~K <6~~ | ~~6≤ K ≤ 7~~ | ~~7<K≤8~~ | ~~8<K≤10~~ | ~~10<~~ | ~~30~~ | ~~=B*30%~~ |
| ~~1.2.~~ | ~~Məcmu kapitalın adekvatlıq əmsalı (Mk2)~~ | ~~<12~~ | ~~13≤K≤14~~ | ~~14<K≤15~~ | ~~16<K≤18~~ | ~~18<~~ | ~~30~~ | ~~=B*30%~~ |
| ~~1.3.~~ | ~~Ani likvidlik əmsalı (Al3)~~ | ~~<30~~ | ~~30≤L≤35~~ | ~~35<L≤37~~ | ~~37<L≤40~~ | ~~40<~~ | ~~40~~ | ~~=B*30%~~ |
| ~~**1.4.**~~ | ~~**1-ci sütun üzrə yekun (Y1)**~~ | | | | | | ~~**100**~~ | ~~= (B*30%)+ (B*30%)+ ( B*40%)~~ |
| ~~**2.**~~ | ~~Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində istirak ediləcək struktur bölmələrin kifayətliliyi (Kb)~~ | | | | | | ~~**45**~~ | ~~**=Y2(8)*45%**~~ |
| ~~2.1.~~ | ~~Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində istirak ediləcək struktur bölmələrinin sayı (sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış məntəqələrində) / Sığorta hadisəsi baş verdiyi iştirakçı bankın müvafiq yaşayış məntəqələrində yerləşdiyi struktur bölmələrinin sayı~~ | | | | | | ~~100~~ | ~~=B*100~~ |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **~~2.2.~~** | **~~2-ci sütun üzrə yekun (Y2)~~** | | | | | | **~~100~~** | ~~=B*100%~~ |
| ~~3.~~ | ~~Bankın müqayisəsi (%) (BM)~~ | | | | | | ~~20~~ | |
| ~~3.1.~~ | ~~Sığorta hadisəsi baş vermiş bankın əmanətçilərinin qarşısında öhdəliklərinin ümumi məbləği / Müsabiqədə iştirak edən bankın əmanətçiləri qarşısında (ÖMN1) öhdəliklərinin ümumi məbləği~~ | ~~< 50~~ | ~~51-69~~ | ~~70-99~~ | ~~100-119~~ | ~~≥120~~ | ~~50~~ | ~~=B*50%~~ |
| ~~3.2.~~ | ~~Müsabiqədə iştirak edən bankın xüsusi vəsaitinin (kapitalının) həcmi / Sığorta hadisəsi baş verən bankın əmanətçilərinin qarşısında öhdəlikləri (KM2)~~ | ~~< 60~~ | ~~61-74~~ | ~~75-84~~ | ~~85-99~~ | ~~≥100~~ | ~~50~~ | ~~=B*50%~~ |
| **~~3.3.~~** | **~~3-cü sütun üzrə yekun (Y3)~~** | | | | | | **~~100~~** | ~~= (B*50%)+ (B*50%)~~ |
| ~~4.~~ | ~~Bank tərəfindən fiziki şəxslərə ödənişlərin həyata keçirilməsinə dair təcrübənin olması (MÖ)~~ | ~~Təcrübə yoxdur~~ | | | | | ~~5~~ | ~~=B*5%~~ |
| | **~~Yekunların cəmi(YC)2 = =(Y1+Y2+Y3+Y4)~~** | | | | | | **~~100~~** | **~~=(Y1+Y2+Y3+ Y4)~~** |

| № | Qiym. göstəricilər | Həssaslıq | | | | | Çəki % | Bal.qiym. |
|---|---|---|---|---|---|---|---|---|
| | | 1 Bal | 2 Bal | 3 Bal | 4 Bal | 5 Bal | | |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **1.** | ***Maliyyə etibarlılığı (%)*** | | | | | | *30* | ***1.4*30%*** |
| *1.1.* | *I dərəcəli kap.adekv. əm.* | *K<6* | *6≤K≤7* | *7<K≤8* | *8<K≤10* | *10<* | *30* | *B*30%* |
| | | | | | | | | |
| *1.2.* | *Məcmu kap.adekv.əm.* | *<12* | *12≤K≤14* | *14<K≤15* | *15<K≤18* | *18<* | *30* | *B*30%* |
| | | | | | | | | |
| *1.3.* | *Ani likv.əm.* | *<30* | *30≤L≤35* | *35<L≤37* | *37<L≤40* | *40<* | *40* | *B*40%* |
| | | | | | | | | |
| ***1.4.*** | ***1-ci sütun üzrə yekun (Y1)*** | | | | | | *100* | *1.1.+1.2.+1.3.* |
| ***2.*** | ***Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində iştirak ediləcək struktur bölmələrinin kifayətliliyi(FK)*** | | | | | | 45 | ***2.3.*45%*** |
| | *Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların* | *≤ 30* | *20< F ≤ 40* | *40 < F ≤ 60* | *60 < F ≤ 80* | *80 <* | 55 | ***B*55%*** |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **2.1** | *ödənilməsində iştirak ediləcək struktur bölmələrinin yerləşdiyi regionların sayı (sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış regionlarda) / Sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi regionların sayı* | | | | | | | |
| | *Müsabiqədə iştirak edən bank tərəfindən kompensasiyaların ödənilməsində iştirak ediləcək struktur bölmələrinin sayı(sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin yerləşdiyi yaşayış məntəqələrində) / Sığorta hadisəsi baş verdiyi iştirakçı bankın struktur bölmələrinin sayı* | *≤ 20* | *20< F ≤ 40* | *40 < F ≤ 60* | *60 < F ≤ 80* | *80 <* | | |
| *2.2.* | | | | | | | *45* | *B*45%* |
| ***2.3.*** | ***2-ci sütun üzrə yekun (Y2)*** | | | | | | *100* | *2.1.+2.2.* |
| ***3.*** | ***Bankın müqayisəsi (%) (BM)*** | | | | | | *20* | *3.3*20%* |
| *3.1.* | *Sığorta hadisəsi baş vermiş bankın əmanətçilərinin qarşısında* | *< 50* | *51-69* | *70-89* | *90-100* | *≥101* | *50* | *B*50%* |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | *öhdəliklərinin ümumi məbləği / Müsabiqədə iştirak edən bankın əmanətçiləri qarşısında öhdəliklərinin ümumi məbləği* | | | | | | | |
| *3.2.* | *Müsabiqədə iştirak edən bankın xüsusi vəsaitinin (kapitalının) həcmi / Sığorta hadisəsi baş verən bankın əmanətçilərinin qarşısında öhdəlikləri* | *< 60* | *61-74* | *75-84* | *85-99* | *≥ 100* | *50* | *B*50%* |
| ***3.3.*** | ***3-cü sütun üzrə yekun (Y3)*** | | | | | | *100* | ***3.1.+3.2.*** |
| ***4.*** | ***Bank tərəfindən fiziki şəxslərə ödənişlərin həyata keçirilməsinə dair təcrübəsinin olması (MÖ)*** | *Fəaliyyət müddəti 2-5 il* | *Fəaliyyət müddəti 5-10 il* | *Fəaliyyət müddəti 10 ildən yuxarı* | *Dövlətin sosial-iqtisadi xarakterli ödəniş layihələrində təcrübəsi* | *Fondun kompensasiya ödənişlərində iştirakı* | *5* | *4.1.*5%* |
| ***4.1.*** | | | | | | | *100* | *B*100%* |
| | ***Yekunların cəmi (YC) =(ME+FK+BM+MÖ)*** | | | | | | *100* | *1+2+3+4* |

**Cədvəl 3**

**Ödənişlərin təşkil edilməsi xərclərinin kompensasiyasına dair təkliflərinin qiymətləndirilməsi**

| № | Qiymətləndirmə mövqeləri | Mənalar | | | | | Çəki % | Ballarda qiymətləndirmə |
|---|---|---|---|---|---|---|---|---|
| | | 1 Bal | 2 Bal | 3 Bal | 4 Bal | 5 Bal | | |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | Əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin Banka verilməsi cədvəli | Ödənişlərin başlanması tarixində bütün məbləğlər | 2 Tranş | 3 tranş | ≥ 4 tranş | Ödənişlərin başa çatdığı tarixdə bütün məbləğlər | 25 | =B*25% |
| | Yekun (YC) 3.1 | | | | | | 100 | =B*25% |

**Cədvəl 4**

**Təkliflərinin yekun olaraq qiymətləndirilməsi**

| № | Təkliflərin qiymətləndirilməsi | Həssaslıq | Xüsusi çəki | Yekun |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Kompensasiyaların ödənilməsinin təşkil edilməsinə dair təkliflərin qiymətləndirilməsi | Yekunların cəmi(YC)2 = =(Y1+Y2+Y3+Y4) | 70 | =3*4 |
| 2 | Ödənişlərin təşkil edilməsi xərclərinin kompensasiyasına dair təkliflərin qiymətləndirilməsi | Yekun (YC)3.1 | 30 | =3*4 |
| | Yekun: | | 100 | |

**Cədvəl ~~5~~3**

**Müsabiqə iştirakçılarının reytinqi**

| **Reytinq də yeri** | **Bankın adı** | **Yekun qiymət** | Əmanətçilərə ödəniləcək kompensasiya məbləğinin Banka verilməsi üzrə teklif(Fondun müəyyən etdiyi şərtlərdən daha sərfəli olduqda doldurulur) | **Xidmət haqqının həcmi (3-cü sütunun göstəriciləri eyni olanda doldurulur)** | **Əsas vəsaitlər (kapital) (3-cü və 4-cü sütunların göstəriciləri eyni olanda doldurulur)** |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | | **4** | **5** |
| | | | | | |